# AĞRIDAĞ ƏZƏMƏTİ



*İbrahim YUSİFOĞLU,*
*AYB-nin üzvü, "Şərur" Ədəbi Birliyinin rəhbəri*

### *TANIŞLIQ: KÖVRƏK XATİRLƏRİN İŞIĞINDA*

**Həyatda vüqarlılıq axtaranda həmişə Ağrıdağına tərəf boylanmışam. Zirvəsi ağ örpəyə bürünmüş bu ulu dağın duruşunda bir möhtəşəmlik, baxışında müdriklik, görünüşündə saflıq duymuşam. Və həyatda gördüyüm ilk gündən sevimli yazıçı, xeyirxah insan, qəlbimin dərinliyində özünə əbədi yer tapmış Hüseyn İbrahimov mənim üçün Ağrıdağ qədər əzəmətli olubdur.**

### *NƏ VAXT GÖRMÜŞƏM, NƏ VAXT TANIMIŞAM HÜSEYN MÜƏLLİMİ...*

BUGÜNKÜ KİMİ XƏYALIMDA, GÖZLƏRİMİN ÖNÜNDƏDİR.

1970-ci ilin aprel günlərinin biri idi. Hamı kimi biz - Naxçıvan Pedaqoci Məktəbinin tələbələri də "dahi rəhbər" V. İ. Leninin ad günü münasibətilə keçirilən "qırmızı iməciliyə" çıxmışdıq. Yuxarıdan göndərilmiş bir nəfərin rəhbərliyi altında Naxçıvan şəhərindəki U. Məmmədquluzadə adına Dövlət Musiqii Dram Teatrının ətrafındakı küçələrdən birini süpürüb təmizləyirdik. Elə bu vaxt bizə rəhbərlik edən məmura ağsaçlı, üz-gözündən nur, müdriklik yağan bir nəfər yaxınlaşdı. Və qəti şəkildə bildirdi ki, sabahın müəllimlərinə küçə təmizlətməzlər. "Məmur" nə dedisə, o ağsaçlı adam yenə də qətiyyətlə dedi: "Kimin tapşırığı, kimin bölgüsü olursa-olsun! Bu tələbələrə iməcilikdə işləmək üçün başqa iş təşkil edin!". Bunu deyib sərt addımlarla bizdən uzaqlaşdı. Biz isə əlimizdə süpürgə onun arxasınca baxdıq. Müəlliməmiz Zeynəb xanım üzümüzdəki marağı görüb: "Tanımadınız, yazıçı Hüseyn İbrahimovdur. O, müəllimlərin belə alçaldılmasına dözə bilməz" -- dedi. Zeynəb müəllimə elə bil dünyanı verdi bizə. "Tanıdıq!" -- dedik. Kimsə "Baharın hekayəsi", kimsə "Zərifənin çiçəkləri", kimsə "Göyərçinin məhəbbəti" əsərlərinin adını çəkdi. Mənim isə xəyalımda "Sabahın sorağında" romanından aldığım mənəvi zövq təzədən canlandı.

...Və gəlib çıxdıq 1980-cı ildə Naxçıvan Dövlət Pedaqoci İstitutunda təhsil aldığımız illərə. Günlərin bir günü ciblərimiz də ürəyimiz kimi tərtəmiz olan vaxtımızda qapıları açıq olsa da bizə bağlı görünən ərzaq mağazalarının yanından keçib dahi Nizami Gəncəvinin heykəli ucalan binanın yanına çatdım. Qələm dostum Asim Yadigar məni səslədi: "Gəl, Hüseyn müəllimin yanına gedək. İndi o, Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan Şöbəsinin məsul katibidir". Tərəddüd etdim: "Mən hara, Yazıçılar Birliyinin şöbəsi hara?!" -- dedim. Asim Yadigar əl çəkmədi məndən və and-aman elədi: "Hüseyn müəllim işə başladığı ilk gündən gənc şair və yazıçılarla maraqlanır, şöbəyə dəvət edir, kitablarını çapa hazırlayır. Sənin də ünvanına -- Şərurun Axura kəndinə məktub göndəribdir, yəqin imtahan sessiyasında olduğun üçün xəbərin yoxdur" -- dedi. Daha inandırıcı olsun deyə məktubun surətini mənə oxudu: "Hörmətli İbrahim Yusifov yoldaş, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinə təqdim olunan iş planına əsasən, ilin ədəbi yekunlarına həsr edilən yığıncaq keçirilir.

Sizi həmin yağıncağa dəvət edirik.

Məsul katib: H. İbrahimov, Yazıçılar İttifaqı Naxçıvan Şöbəsi".

-- Şeirlərini oxumuşam,-- dedi. Sabah Naxçıvan şəhərindəki M. S. Ordubadi adına Mərkəzi Kitabxanada keçirilən poeziya tədbirində sən



də gənc şair kimi şeirlərini oxuyacaqsan, get hazırlaş!...

Beləcə, üzümə bir qapı da açıldı. Bu qapıdan keçib poeziya gecələrinə getdim, qəzet və curnal səhifələrində dərc olundum, efir və ekranlardan səsim gəldi, almanaxlarda şeirlərim işıq üzü gördü və ilk kitabın barını daddım. Bütün bu yaxşılıqları mənə Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan Şöbəsinin məsul katibi Hüseyn İbrahimov etdi.

### *BİR ÖMRÜN SƏDASI...*

Azərbaycanın Xalq yazıçısı Hüseyn İbrahimov 1919-cu il may ayının 23-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. Atası Məhəmmədəli kişi, sözün əsl mənasında, əkinçi olub. Bütün varlığı ilə torağa bağlanan bu işgüzar rəncbəri təkcə doğma kəndində deyil, həmin bölgənin qonşu kəndlərindən də tanıyıblar, hörmət və ehtiram göstəriblər.

Hüseyn İbrahimov belə sadə və zəhmətkeş ailədə böyüyüb ərsəyə gəlib. Bəlkə də sonralar yazıçı kimi tanınanda da torpağa ürəkdən bağlılığını, zəhmətsevərliyini ona atasından qalan əsl varislik kimi qiymətləndiriblər.

Hüseyn İbrahimov Şahtaxtı kəndindəki orta məktəbi bitirəndən sonra Naxçıvan şəhərinə gələrək Dəmir yol məktəbində oxumuş, Pedaqoci Texnikumu bitirmiş, sonralar Azərbaycan Dövlət Universitetinin curnalistika fakültəsində təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1940-cı ildə Sədərək kəndindəki orta məktəbdə müəllimliklə başlamışdır. Sonralar uzun müddət Şərur rayonunda və Naxçıvan şəhərində Gənclər Təşkilatına başçılıq etmişdir. İkinci Dünya savaşından sonra mətbuat sahəsində işləmişdir. Əvvəlcə "Şərq qapısı" qəzetinin redaksiyasında redaktor müavini, sonra Naxçıvan MSSR Nazirlər Kabineti yanıda Radio Verilişləri Komitəsinin sədri, vilayət qəzeti "Şərq qapısı"nın redaktoru olmuşdur. Bir neçə il muxtar respublikanın Mədəniyyət Nazirliyinə rəhbərlik etmişdir. Uzun illər Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan Şöbəsinin məsul katibi işləmişdir. H. M. İbrahimov üç çağırış Naxçıvan Muxtar Respublika Ali Sovetinin deputatı, iki çağırış Naxçıvan MR Ali Sovetinin sədri seçilmişdir. 2-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur. Muxtar respublika ədəbi mühitinin təşəkkül tapıb tərəqqi etməsində H. İbrahimovun müstəsna xidmətləri vardır.

Hazırda Naxçıvanda yazıb-yaradan yazıçı və şairlərin əksəriyyəti Hüseyn müəllimin qayğısı sayəsində ədəbiyyatda ilk kövrək addımlarını atmışlar.

Ömrünü ədəbiyyata, onun inkişafına həsr edən tanınmış yazıçının hekayə və novellaları, povest və romanları Azərbaycan oxucuları tərəfindən həmişə rəğbətlə qarşılanmış və indi də maraqla oxunur. Onun "Baharın hekayəsi", "Göyərçinin məhəbbəti", "Ürək səhv edəndə", "Şirin xaitirə", "Nəciblik", "Qu quşları öləndə oxuyurlar", "Sabahın sorağında", "Günəş doğan yerdə", "Bahar yağışı", "Böhtan", "Əsrin onda biri" və başqa kitabları nəşr edilmişdir. "Gülzar", "Urək səhv edəndə" hekayə topluları və "Günəş doğan yerdə" romanı rus dilinə, həmçinin bir neçə hekayəsi müxtəlif xalqların dillərinə tərcümə edilmişdir. "Zərifənin çiçəkləri" hekayəsi əsasında eyni adlı film çəkilmişdir. "Torpağın övladları", "İtirilən sağlıq" pyesləri tamaşaya qoyulmuşdur.

Hüseyn İbrahimov bir sıra xarici yazıçıların -- türk yazıçısı Əziz Nesinin, Suriya yazıçısı Murad Siabinin, Misir yazıçısı Şixata Ubeydin, özbək yazıçısı Abdulla Qəhharın hekayələrini dilimizə tərcümə etmişdir. Ədibin "Seçilmiş əsərləri" nəşr olunaraq oxuculara çatdırılmışdır.

"Əsrin onda biri" və "Böhtan" romanları onun yaradıcılığında xüsusi yer tutur. "Əsrin onda biri" (1987) böyük Azərbaycan memarı Əcəmi Naxçıvaniyə, "Böhtan" (1998) isə Azərbaycan poeziyasınnı romantik filosof korifeyi Hüseyn Uavidə həsr olunmuşdur.

Hər iki roman Azərbaycan ədəbi icimiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

H. M. İbrahimovun ədəbi uğurlarına dövlət tərəfindən yüksək qiymət verilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 27 iyun 1994-cü il tarixli Fərmanı ilə Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Hüseyn Məmmədəli oğlu İbrahimov "Şöhrət" ordeni ilə təltif edilmiş, 23 may 1998-ci il tarixli Fərmanı ilə ona "Xalq yazıçısı" fəxri adı verilmişdir.

### *GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR H. İBRAHİMOV HAQQINDA:*

Hüseyn İbrahimovun yaradıcılığı haqqında görkəmli şəxsiyyətlər müdrik fikirlər söyləmişlər. Yazıçının 50, 60, 75 illiyində deyilmiş fikirlərin bu gün də aktuallığını nəzərə alaraq onlardan nümunələr gətirirəm:

- H. İbrahimov həyata yaxşı bələd olan, qələmə aldığı mövzunu yaxşı bilən yazıçıdır. Onun rəvan, səlis bədii dili, rəngarəng ifadə vasitələri, gözəl nəql etmək tərzi vardır.

**Yavuz Axundov,**
**filologiya elmləri doktoru, professor, "Azərbaycan gəncləri" qəzeti, 22.05.1969**

- Hüseyn İbrahimov onu narahat edən bir sıra ictimai, tərbiyəvi problemləri "Günəş doğan yerdə", "Sabahın sorağında" romanlarında, vəzifə və pul düşgünlərini, ucuz və əyri yollarla varlanmaq ehtirası ilə yaşayanları "İtirilən sağlıq" pyesində, mədəniyyət tariximizdə misilsiz xidmətləri olan dahi bəstəkarımız Üzeyir Hacıbəyovun, onun M. Maqomayev, Ə. Haqverdiyev, H.Ərəblinski kimi sənət və məslək dostlarının amallarını "Ölməz mahnılar" adlı tarixi kino-povest ilə canlı, yaddaqalan səhnələrdə əks etdirmişdir.

Hüseyn İbrahimov müasir dünyamıza həyatımızla sıx bağlı sənətkardır və bu günün problemləri onun əsərlərində aparıcı yer tutur.

Təmizliyə çağırış, insanlarda saflıq və gözəllik hisslərini istiqamətləndirmək, dövrümüzün mühüm əxlaqi problemləri, insan ləyaqətinə kölgə salan hər cür əyriliyə xəlqi mövqedən atəş açmaq Hüseyn İbrahimovun yaradıcılığının əsas pafosunu təşkil edir...

**Qulu Xəlilov,**
**filologiya elmləri doktoru, professor "Ədəbiyyat və incəsənət" qəzeti, 15.06.1979**

- Hüseyn İbrahimovun şəxsiyyəti, xarakteri ilə yaradıcılığı arasında möhkəm bir bağlılıq, vəhdət vardır. O, xarkteri etibarı ilə çox təmkinli, daxilən saf, təmizkar, ağır adamdır. Məlum olduğu kimi, nəsr canrları da özünün təmkinli, sakit, epik təhkiyəsi ilə səciyyələnir. Adama elə gəlir ki, bu xarakterin sahibi heç vaxt şair ola bilməzdi. O, yalnız nəsr yazmalı idi.

**İsa Həbibbəyli,**
**Azərbaycan MEA-nın həqiqi üzvü, "Ədəbiyyat qəzeti" 08.06.1994**

Hüseyn müəllim haqqında deyilmiş bu ürək sözlərinə onun "Vicdan səsi" hekayəsindəki Kamal müəllimin dediklərini ərmağan edirəm:

"Nə vaxt meşəyə yolum düşüb, orada gözüm ilk növbədə çinar axtarıb, palıd gəzib...

Hər hansı bir dağın döşündən keçəndə gözlərimi ilk növbədə zirvəyə zilləmişəm. Yalçın qayada qartal görəndə sinəm qabarıb! Bu da ondan irəli gəlib ki, həyat mənim başıma həmişə sığal çəkməyib.

Mən kasıb bir kişinin oğluyam... Daşdan çörək çıxaran adi bir fəhlənin... Ləyaqətli adamlar da görmüşəm, namərdlər də... Qeyri-insani münasibətlərə məruz qaldığım vaxtlar da olub. Ancaq heç zaman müvazinətimi itirməmişəm, vüqarımı pozmamışam. Həmişə şahanə dolanmışam. Fikirləşmişəm ki, qoy övladlarım, onların həmyaşıdları mənə baxıb dəyanətli olmağı öyrənsinlər, bəzi naqislərin bəd əməllərini görüb ruhdan düşməsinlər, həyat yollarında büdrəməsinlər. Bir müdrik qocadan soruşdular ki, niyə belə çox yaşamısan? Uavab verir ki, ömrüm boyu paxıllıq etməmişəm. Ən çətin vaxtlarımda da gözlərimə, bir də əllərimə güvənmişəm. Bıçağı uzun olana qəssab, kəfkiri uzun olana aşpaz deməmişəm"

H. Razi:

**İnşaallah, bir gün də bayram edərik,**
**Ömrünün ikinci yarıməsrini**

1994-cü ilin may ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı ilə Hüseyn İbrahimovun 75 illik yubileyi rəsmi qaydada qeyd edilirdi. Naxçıvan Dövlət Dram Teatrının binasında keçirilən yubiley tədbiri Hüseyn müəllimin şəxsiyyətinə və yaradıcılığına xas olan yüksək tərzdə təşkil olunmuşdu. Çıxış edənlərin təbrikləri səmimi və mənalı idi. Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, şair-publisist Hüsyen Razi öz ürək sözlərini aşağıdakı şeir parçası ilə ifadə etdi:

**Əlli ildir bir yolda müsafirik,**
**Müşayət eyləyib şeirim nəsrini.**
**İnşaallah, bir gün də bayram edərik,**
**Ömrünün ikinci yarım əsrini.**

Budur, bu ülvi arzuya qovuşmuşuq. Hüseyn İbrahim ömrünün ikinci yarıməsrinə, 100 yaşına çatıbdır.

"Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 13 may 2019-cu il tarixli və Respublika Prezidentinin 18 may 2019-cu il tarixli sərəncamlarına uyğun olaraq yuibley tədbirləri geniş qeyd edilir...

...Həyatda gördüyüm ilk gündən sevimli yazıçı, xeyirxah insan, ömrünün 100-cü baharını qeyd etdiyimiz Hüseyn İbrahimov mənim üçün həmişə Ağrı dağı qədər əzəmətlidir...